# Aydın Əzimovun kamera-instrumental yaradıcılığı

**Əliyeva Aynurə (AMK)**
**Fakültə: Musiqi tarixi və nəzəriyyəsi**
**İxtisas: musiqi nəzəriyyəsi**
**Kurs: II**
**Elmi rəhbər: AMK-nın professoru, əməkdar incəsənət xadimi Faiq Nağıyev**

Azərbaycan musiqi mədəniyyəti tarixində mühüm rol oynamış istedadlı bəstəkarlarımızın həyat və yaradıcılığının araşdırılıb işıqlandırılması hər zaman aktual məsələlərdən biridir. Dahi bəstəkar Qara Qarayevin məktəbini bitirmiş, hal-hazırda yaşayıb yaradan tanınmış bəstəkarlardan biri də Aydın Əzimovdur. O, Qara Qarayev məktəbinin ənənələrini özünəməxsus şəkildə davam etdirir. Azərbaycan Respublikasının Dövlət Himninin bərpası kimi məsuliyyətli bir iş dövlətimiz tərəfindən məhz Aydın Əzimova həvalə olunmuş və o da bu işin öhdəsindən layiqincə gəlmişdir. Hal-hazırda o, Bakı Musiqi Akademiyasının bəstəkarlıq kafedrasının rəhbəri kimi fəaliyyət göstərir.

Elmi araşdırma zamanı bəstəkarın həyat yolu və yaradıcılığı dərindən öyrənilmiş, özü ilə söhbətlər zamanı indiyədək heç bir mənbədə öz əksini tapmayan yaradıcılığına dair bir sıra yeniliklər aşkarlanmışdır.

Aydın Əzimovun bəstəkar kimi fəaliyyəti olduqca zəngin və rəngarəngdir. O, müxtəlif janrlara müraciət edərək

bu janrlarda bir sıra nümunələr yaratmışdır. Simfonik orkestr üçün "Böyük Romul" süitası, qoboy və vibrofon üçün 2 pyes, "İlmələr" prelüdiyaları, skripka və fortepiano üçün Sonata, simfonik orkestr üçün 10 əsgər marşı, "Ağılar" simfonik quramaları, fortepiano üçün variasiyalar, çoxlu sayda dram teatrı tamaşalarına və kinofilmlərə musiqi və s. əsərlərin müəllifidir.

Milli mədəniyyətimizin və incəsənətimizin böyük nailiyyətlərindən biri də bir çox dövlətlərin musiqi mədəniyyətinin inkişafında rol oynamış istedadlı sənətkarlarımızın yetişdirilməsidir. Bu sənətkarlar sırasında Aydın Əzimovun da adı qeyd edilməlidir. Belə ki, bəstəkar 10 il Türkiyədə elmi pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, 1995-ci ilin noyabr ayında Türkiyə Respublikası Mersin Universiteti Dövlət Konservatoriyasına işləməyə dəvət olunmuş, 2005-ci ilə qədər orada çalışmışdır.

Türkiyədə fəaliyyəti zamanı bəstəkarın bir çox əsərləri Türkiyənin müxtəlif bölgələrində konsertlərdə ifa olunmuşdur. Həmçinin burada o, bir çox istedadlı musiqiçi yetişdirmişdir.

Tədqiqat çərçivəsində Aydın Əzimovun kamera instrumental yaradıcılığının araşdırılması nəzərdə tutulmuşdur. Tədqiqat işi iki fəsildən ibarətdir. Hər fəsil də öz növbəsində iki yarımfəsilə bölünür. Tədqiqat işinin birinci fəslinin birinci yarımfəsli bəstəkarın həyat yolu və yaradıcılığına, ikinci yarımfəsli isə pedaqoji fəaliyyətinə həsr edilmişdir.

Tədqiqatın ikinci fəslinin birinci yarımfəslinə bəstəkarın kiçik həcmli kamera instrumental əsərləri, onlardan: fortepiano üçün 7 prelüddən ibarət "İlmələr", fleyta və fortepiano üçün rəqs, fleyta və fortepiano üçün "Alatoran" pyesi, fortepiano üçün "Sona xanım" pyesi, fortepiano üçün "Şəki bazarı" pyesi, violin və fortepiano üçün "Bir tanem" pyesi, ikinci yarımfəslinə isə violin və fortepiano üçün Sonatası daxil edilmişdir.